**Hava Nəqliyyatında Baş Gömrük İdarəsi tərəfindən təşkil olunan**

**“Sheraton” otelin akt zalında keçirilmiş iclasın**

**PROTOKOLU**

**Bakı şəhəri** **“17” Avqust 2018-ci il**

***İştirak edənlər:***

*İclasın sədri:* Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Sədrinin müavini İqbal Babayev;

*İştirakçılar:* Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi Səməd Qaralov; Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Ödənişləri İdarəsinin rəisi Şahin Ələsgərov

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Bəhruz Quliyev; Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin 1-ci müavini Elmir Quliyev; Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin müavini Müslüm Səfərov; Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin müavini Üveysi İsmayılov; Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin müavini Pərvin Əliyev;

- Və Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin idarə, şöbə, post rəisləri və digər əməkdaşları;

*Dəvət olunanlar:*

- Bakı Kargoterminalın rəhbər heyəti;
- Xarici İqtisadi fəaliyyətlə məşğul olan bir qrup sahibkar və işadamları;
- Gömrük brokeri fəaliyyəti ilə məşğul olan gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislər;

*İclasın katibi:*

İnzibati İdarəetmənin Təşkili şöbəsinin rəisi Mahir Mirzəliyev;

**Gündəlik**

Gömrük işinin daha şəffaf və səmərəli şəkildə təşkili, malların və nəqliyyat vasitələrinin təyinat nöqtəsinə asan və sürətli şəkildə çatdırılması və gömrük rəsmiləşdirilməsi ilə bağlı gömrük sistemində həyata keçirilən islahatlar və yeniliklər barədə biznes subyektlərini məlumatlandırılması;

Gömrük nəzarəti və rəsmiləşdirilməsi prosesində xarici iqtisadi fəaliyyət iştirakçılaının qanunla müəyyən olunmuş maraq və mənafelərinin qorunması;

***Çıxış etdilər:***

İclasın sədri Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Sədrinin müavini gömrük xidməti general-mayoru İqbal Babayev iclas iştirakçılarını salamladı və iclası açıq elan etdi. Bildirdi ki, görüşdə məqsəd gömrük işinin daha şəffaf və səmərəli şəkildə təşkili, malların və nəqliyyat vasitələrinin təyinat nöqtəsinə asan və sürətli şəkildə çatdırılması və gömrük rəsmiləşdirilməsi ilə bağlı gömrük sistemində həyata keçirilən islahatlar və yeniliklər barədə biznes subyektlərini məlumatlandırmaqdır.

Ölkə iqtisadiyyatı və xarici ticarətin inkişafı istiqamətində Prezident İlham Əliyev tərəfindən atılan zəruri addımlardan bəhs edən DGK sədrinin müavini, eyni zamanda, gömrük orqanları tərəfindən son zamanlar idxal-ixrac əməliyyatlarının sürətli və maneəsiz şəkildə həyata keçirilməsi, şəffaflığın təmin olunması, daha əlverişli biznes mühitinin yaradılması üçün görülən işlər barədə danışdı.

İqbal Babayev vurğuladı ki, gömrük sistemində islahatlar bir neçə istiqamətdə aparılır; həm struktur, həm də biznes prosesində mühüm dəyişikliklər edilir. Beynəlxalq təcrübə nəzərə alınmaqla, ticarətin asanlaşdırılması və informasiya texnologiyalarının tətbiqi həyata keçirilir, sahibkarlar və gömrük əməkdaşları arasında münasibətlər təkmilləşdirilir. Diqqətə çatdırıldı ki, yaxın zamanlarda gömrük sistemində aparılan islahatlar başa çatdırılacaq və bu barədə ictimaiyyətə məlumat veriləcək. Hazırda isə bu islahatlar ayrı-ayrı gömrük orqanları üzrə yekunlaşdırılır.

Həmçinin, o, ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində xüsusi payı olan  xarici iqtisadi fəaliyyət iştirakçılarının mənafelərinin qorunmasında gömrük təmsilçilərinin, xüsusilə gömrük brokerlərinin də xüsusi rolu olduğu bildirildi. Lakin çox təəssüf ki, gömrük brokeri fəaliyyəti ilə məşğul olan təşkilatların gömrük rəsmiləşdirilməsi üzrə əməliyyatları həyata keçirən bəzi mütəxəssisləri öz hüquq və vəzifələrini bilmədiyini, o cümlədən vəzifələrindən sui-istifadə edərək, xarici iqtisadi fəaliyyət iştirakçılarına, iş adamlarına xidmət göstərmədiyini, onlara gömrük rəsmiləşdirilməsi prosesində düzgün istiqamət vermədiyini xüsusilə vurğuladı. “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 4 mart 2016-cı il tarixli, 1853 nömrəli Sərəncamı ilə məmur-vətəndaş təmasının minimuma endirilməsi nəzərdə tutlmuş, və elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Gömrük Məcəlləsində nəzərdə tutulmuş bütün bəyannamələrin gömrük orqanlarında elektron formada qəbul olunmasının müəyyən olunduğunu,  məmur-vətəndaş təmasının minimuma endirilməsi prosesində isə  peşəkar gömrük brokeri xidmətlərindən istifadə edilməsi hələ də öz həllini tapmayan bu problemin tezliklə aradan qaldırılmasına səbəb olacağı fikrini bir daha irəli sürdü.

Komitə sədrinin müavini İqbal Babayev qeyd etdi ki, sahibkarlarla yanaşı, gömrük əməkdaşları da öz fəaliyyətlərini qlobal çağırışlara uyğunlaşdırırlar. Artıq gömrük sistemində nəzarət yox, xidmət mədəniyyəti formalaşdırılır və biznesin inkişafına bu

yöndə dəstək verilir. Bununla belə, gömrük orqanlarının biznes subyektlərindən əsas gözləntisi dəqiqlik və etibarlılıqdır.

İqbal Babayev "gömrük-dövlət", "gömrük-gömrük" və "gömrük-biznes" əməkdaşlığı istiqamətində görülən tədbirlərin də məhz qarşılıqlı səmərəli fəaliyyətin təşkilinə xidmət etdiyini bildirdi. Qeyd edildi ki, bu gün gömrük orqanlarının fəaliyyəti digər aidiyyəti dövlət strukturları ilə sinxronlaşdırılıb və bu da bütün gömrük hüqupozmalarının qarşısının operativ şəkildə alınmasını təmin edir. Azərbaycan Gömrük Xidməti digər ölkələrin gömrük orqanları ilə mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkilini həyata keçirir ki, bu da gömrük vergi və rüsumlarından yayınmalara yönələn bütün cəhdləri imkansız edir. İqbal Babayev onu da qeyd etdi ki, ticarətin inkişafı, gömrük prosedurlarının asan və sürətli həyata keçirilməsi mallar və nəqliyyat vasitələrinin gömrük orqanlarına əvvəlcədən bəyan edilməsindən çox asılıdır.

Daha sonra Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi Səməd Qaralov gömrük işinin təkmilləşdirilməsilə bağlı yeniliklər və güzəştlər barədə sahibkarları məlumatlandırdı və bildirdi ki, başlıca məqsəd idxal-ixrac əməliyyatlarının asanlaşdırılması və sürətləndirilməsi, gömrük əməliyyatlarının şəffaf şəkildə həyata keçirilməsinin təmin olunması, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasıdır.

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Bəhruz Quliyev isə gömrük sistemində aparılan islahatların gömrük işinin səmərəli təşkili, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsinə şərait yaratdığını diqqətə çatdırdı. Bildirdi ki, yaradılmış mövcüd struktur tamamilə vətəndaş məmnunluğuna hesablanmışdır. İdarədə elektron növbə sistemi yaradılmış və hər bir xarici iqtisadi fəaliyyət iştirakçılarına tez bir zamanda yüklərini rəsmiləşdirmələrinə maksimum şərait yaradılmışdır və bu istiqamətdə işlər mütəmadi olaraq davam etdiriləcəkdir. O, Hava Nəqliyyatında Baş Gömrük İdarəsi tərəfindən həyata keçirilən tədbirlərdən ətraflı bəhs etdi, o cümlədən idxal-ixrac əməliyyatları zamanı yarana biləcək hər hansı problemin qısa zaman kəsiyində həll edilməsinin hər bir əməkdaşın borcu olduğunu bildirdi və yarana biləcək hər hansı bir əsassız gecikdirmələr, qeyri-qanuni tələblər kimi neqativ hallar olarsa bu barədə idarə rəhbərliyinə dərhal müraciət edəbiləcəklərini qeyd etdi.

Diskussiya şəraitində keçən görüşün sonunda sahibkarları maraqlandıran məsələlərə aydınlıq gətirildi. İclasda çıxış edən iştirakçılar ölkədə iqtisadi sabitliyin təmin olunması istiqamətində öhdələrinə düşən bütün vəzifələri bundan sonra da məsuliyyətlə yerinə yetirəcəklərini bildirdilər və müəyyən təkliflərlə çıxış etdilər.

Sonra iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırıldı.

**İclasın katibi** **Mahir Mirzəliyev**

**Hava Nəqliyyatında Baş Gömrük İdarəsi tərəfindən təşkil olunan**

**Baş İdarənin akt zalında keçirilmiş iclasın**

**PROTOKOLU**

**Bakı şəhəri** **“28” Noyabr 2018-ci il**

İştirak edənlər:

İclasın sədri: Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Bəhruz Quliyev

İştirakçılar: Hava Nəqliyyatında Baş Gömrük İdarəsi rəisinin 1-ci müavini Elmir Quliyev; Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin müavini Müslüm Səfərov; Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin müavini Üveysi İsmayılov; Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin müavini Tural Mirzəyev; Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin müavini Fuad Çələbiyev; Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin idarə, şöbə, post rəisləri və şəxsi heyəti.

İclasın katibi:

İnzibati İdarəetmənin Təşkili şöbəsinin rəisi Mahir Mirzəliyev;

Gündəlik

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2007-ci il tarixli 2292 saylı sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübariza üzrə Milli Strategiya"da nəzərdə tutulmuş vəzifə və həmin strategiyaya uygun olaraq 2011 -ci il yanvarın 27-də Azərbaycan Respublikasının Prezidentinin tapşırığı əsasında Prezident Administrasiyasının rəhberi Ramiz Mehdiyevin sədrliyi ilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın növbəti geniş iclasında verilmiş tapşırıqların icrası ilə bağlı məsələlərin müzakirəsi.

Çıxış etdilər:

İclasın sədri Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Bəhruz Quliyev iclas iştirakçılarını salamladı və iclası açıq elan etdi. Bildirdi ki, gömrük sistemində aparılan islahatların gömrük işinin səmərəli təşkili, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsinə şərait yaratmışdır. Yaradılmış mövcüd struktur tamamilə vətəndaş məmnunluğuna hesablanmışdır. İdarədə elektron növbə sistemi yaradılmış və hər bir xarici iqtisadi fəaliyyət iştirakçılarına tez bir zamanda yüklərini rəsmiləşdirmələrinə maksimum şərait yaradılmışdır və bu istiqamətdə işlər mütəmadi olaraq davam etdirilməkdədir.

Bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2007-ci il tarixli 2292 saylı sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübariza üzrə Milli Strategiya"da nəzərdə tutulmuş vəzifə və həmin strategiyaya uygun olaraq

2011 -ci il yanvarın 27-də Azərbaycan Respublikasının Prezidentinin tapşırığı əsasında Prezident Administrasiyasının rəhberi Ramiz Mehdiyevin sədrliyi ilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın növbəti geniş iclasında verilmiş tapşırıqlarda qeyd edilən neqativ hallara heç bir əməkdaş tərəfindən yol verilməməlidir. Əks təqdirdə heç kimə güzəşt olunmayacağını bir daha iştirakçıların nəzərinə çatdırdı. O, Hava Nəqliyyatında Baş Gömrük İdarəsi tərəfindən həyata keçirilən tədbirlərdən ətraflı bəhs etdi, o cümlədən idxal-ixrac əməliyyatları zamanı yarana biləcək hər hansı problemin qısa zaman kəsiyində həll edilməsinin hər bir əməkdaşın borcu olduğunu bildirdi və yarana biləcək hər hansı bir əsassız gecikdirmələr, qeyri-qanuni tələblər kimi neqativ hallar olarsa həmin əməkdaş barəsində dərhal və ciddi tədbirlər görüləcəkdir.

Daha sonra B.Quliyev ölkə iqtisadiyyatı və xarici ticarətin inkişafı istiqamətində Prezident İlham Əliyev tərəfindən atılan zəruri addımlardan bəhs edərək Hava Nəqliyyatında Baş Gömrük İdarəsi tərəfindən son zamanlar idxal-ixrac əməliyyatlarının sürətli və maneəsiz şəkildə həyata keçirilməsi, şəffaflığın təmin olunması, daha əlverişli biznes mühitinin yaradılması üçün görülən işlər barədə danışdı.

Həmçinin, o qeyd etdi ki, “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 4 mart 2016-cı il tarixli, 1853 nömrəli Sərəncamı ilə məmur-vətəndaş təmasının minimuma endirilməsi nəzərdə tutulmuşdur ki, hər bir əməkdaş qoyulmuş qayda və prinsiplərə ciddi riayət etməlidir.

**İclasın katibi** **Mahir Mirzəliyev**